

# Cənubi Qafqazda sülh yolunun tarixi başlanğıcı

*Uzun illərdir davam edən münaqişələr, hərbi qarşıdurmalar, diplomatik gərginliklər və qarşılıqlı inamsızlıq fonunda, nəhayət ki, Cənubi Qafqazda yeni dövrün qapısını aça biləcək sənəd gündəmə gəldi. Avqustun 9-da Azərbaycan və Ermənistan tərəfindən Vaşinqtonda paraflanmış sülh sazişi regional tarix üçün dönüş nöqtəsi hesab oluna bilər. Belə ki, iki ölkə arasında münasibətlərin mürəkkəb tarixi fonu, əsasən, XX əsrin əvvəllərindən başlayaraq Qarabağ bölgəsinə Ermənistanın ərazi iddiaları ilə bağlı yaranan mübahisələrlə formalaşıb.*

SSRİ dövründə bu məsələ "dondurulmuş" saxlanılsa da, imperiyanın süqutundan sonra mübahisə açıq münaqişəyə çevrildi. 1991-1994-cü illər arasında baş verən Qarabağ müharibəsi nəticəsində Ermənistan silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsini və ətraf yeddi rayonu işğal etdi. Bu dövrdə yüz minlərlə insan öz doğma yurdlarından məcburi köçkünə çevrildi. Ermənistanla Azərbaycan arasında birbaşa danışıqlar nəticə vermədi, ATƏT-in Minsk qrupu çərçivəsində vasitəçilik cəhdləri də uzun müddət durğun vəziyyətdə qaldı. Bu vəziyyət 2020-ci ilin payızında baş verən və 44 gün davam edən Vətən müharibəsinə qədər davam etdi. Nəticədə, Azərbaycan ordusunun bölmələri ərazilərinin böyük hissəsini hərbi yolla geri aldı, Rusiya, Azərbaycan və Ermənistan arasında 10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli Bəyanatla müharibəyə son qoyuldu. Həmin bəyanatla Ermənistan əlavə olaraq Kəlbəcər, Ağdam və Laçın rayonlarını da Azərbaycana qaytardı. Bu razılaşma hər nə qədər hərbi əməliyyatları dayandırsa da, sülh sazişi deyildi. Müharibədən sonra sülhün əldə olunması üçün yeni mərhələ başlamışdı, amma sərhədin delimitasiyası və demarkasiyası, sülh sazişinin mətni, kommunikasiya xətlərinin açılması, siyasi münasibətlərin normallaşması məsələləri həllini tapmamışdı. Sülh danışıqları müxtəlif formatlarda davam etdirilirdi. Azərbaycan Prezidenti İlham Əliyev qeyd edirdi ki, münaqişə artıq başa çatıb və Ermənistanla sülh müqaviləsinin imzalanması region üçün həyati əhəmiyyət daşıyır. Ermənistanın baş naziri Nikol Paşinyan isə ölkəsindəki siyasi təzyiqlərə baxmayaraq, sülh kursuna üstünlük verdiyini bildirirdi. 2021-2025-ci illər ərzində müxtəlif vasitəçilərin iştirakı ilə danışıqlar masası ətrafında Brüssel formatı (Aİ-nin vasitəçiliyi), Vaşinqton (ABŞ vasitəçiliyi), Moskva görüşləri (Rusiya vasitəçiliyi) və birbaşa ikitərəfli təmaslar oldu. Bütün bu cəhdlərin nəticəsi olaraq tərəflər ilk dəfə 2023-cü ilin sonlarında ilkin razılaşdırılmış sənəd layihəsi üzərində işləməyə başladılar. Danışıqlarda əsas məsələlərdən biri sərhədlərin müəyyənləşdirilməsi, siyasi və diplomatik münasibətlərin qurulması və regionda üçüncü tərəflərin iştirakı məsələsi idi. Sonda tərəflər razılığa gəldilər və bu ilin avqustunda sazişin paraflanması baş verdi.

(davamı 6-cı səhifədə)

# Cənubi Qafqazda sülh yolunun tarixi başlanğıcı

(əvvəli 1-ci səhifədə)

Paraflanma diplomatik praktikada razılaşdırılmış sənədin ilkin təsdiqi hesab olunur. Yəni sənədin əsas müddəalarını tərəflər razılaşdırıb və bu razılaşma hökumətlərin səlahiyyətli nümayəndələri tərəfindən imzalanıb (adətən xarici işlər nazirləri). Lakin bu, hələ sənədin rəsmi olaraq qüvvəyə minməsi demək deyil. Paraflanmış sənəd sonradan hər iki ölkənin parlamentləri tərəfindən ratifikasiya olunmalıdır. Ratifikasiyadan sonra sənəd hüquqi qüvvəyə minir və icrası məcburi olur. Bununla belə, sazişin məhz bu mərhələyə çatması da əhəmiyyətli irəliləyişdir. Bu, tərəflərin artıq prinsipial məsələlərdə razılığa gəldiyini və diplomatik münasibətlərin normallaşdırılması üçün iradə göstərdiyini sübut edir. Azərbaycan və Ermənistan arasında paraflanmış sülh sazişinin ən əsas və təməl müddəası tərəflərin bir-birinin suverenliyini, ərazi bütövlüyünü və SSRİ dövründə mövcud olmuş inzibati sərhədlər əsasında müəyyənləşmiş dövlət sərhədlərini qarşılıqlı şəkildə tanımasıdır. Bu bənd uzun illər davam edən ərazi iddialarına və hüquqi qeyri-müəyyənliklərə son qoymaq məqsədi daşıyır. Dövlət sərhədlərinin tanınması beynəlxalq hüquqda əsas prinsip hesab olunur və iki dövlət arasında diplomatik münasibətlərin təməlini təşkil edir. Paraflanmış sənədin mətni göstərir ki, Azərbaycan və Ermənistan keçmiş Sovet Sosialist Respublikaları arasındakı inzibati sərhədlərin müstəqil dövlətlər arasındakı beynəlxalq sərhədlərə çevrildiyini və bu sərhədlərin beynəlxalq birlik tərəfindən tanındığını qəbul edirlər. Bu yanaşma postsovet məkanında ümumqəbul olunmuş hüquqi və siyasi normaya çevrilib. Məsələn, Qazaxıstan və Özbəkistan, Gürcüstan və Rusiya, Moldova və Ukrayna da öz sərhədlərini keçmiş SSRİ-nin xəritələri əsasında tanıyıblar. İndi Azərbaycan və Ermənistanın da bu prinsipi qəbul etməsi regionda sərhəd hüququ baxımından vahid yanaşmanın formalaşması deməkdir. Bu bəndin qəbul edilməsi faktiki olaraq Ermənistanın Qarabağla bağlı iddialarına hüquqi nöqtə qoyması kimi də qiymətləndirilir. Rəsmi İrəvan bu sənədlə Azərbaycanın Qarabağ üzərindəki suverenliyini tanıyır, çünki 1991-ci il SSRİ xəritələrində Qarabağ Azərbaycanın tərkibində muxtar vilayət statusunda göstərilmişdi. Azərbaycanın beynəlxalq tanınmış sərhədləri də məhz bu inzibati bölgünü əhatə edir. Beləliklə, Ermənistanın uzun illər ərzində "Qarabağın statusu" ilə bağlı iddiaları və bu məsələnin beynəlxalq müstəviyə çıxarılması səyləri bu sənədlə rəsmi şəkildə dayandırılır. Rəsmi İrəvan üçün bu müddəanın qəbulu çətin, lakin qaçılmaz addım idi. Amma Ermənistanın beynəlxalq izolyasiyadan çıxması və regionda nəqliyyat, enerji və iqtisadi layihələrə inteqrasiya olunması üçün bu addım zəruri idi. Azərbaycan üçün isə bu müddəanın rəsmi sənəddə təsbit olunması diplomatik və siyasi uğur hesab olunur. Rəsmi Bakı uzun illər boyu beynəlxalq hüququn prinsiplərinə istinad edərək ərazi bütövlüyünün təmin olunmasını və bütün əraziləri üzərində suverenliyinin tanınmasını tələb edib. Bu sazişlə Ermənistanın bu mövqeni rəsmi şəkildə qəbul etməsi Azərbaycanın xarici siyasətində mühüm nailiyyətdir.




Azərbaycan və Ermənistan arasında paraflanmış sülh sazişinin daha bir mühüm və strateji əhəmiyyətə malik müddəası iki ölkənin bir-birinə qarşı beynəlxalq hüquqi müstəvidə irəli sürdüyü bütün iddialardan və mübahisələrdən geri çəkilmələri ilə bağlı öhdəlikdir. Sazişin paraflanmış mətninə əsasən, tərəflər bütün dövlətlərarası iddiaları, şikayətləri, etirazları və məhkəmə icraatlarını geri çəkəcək, xitam verəcək və ya həll edəcəklər. Həmçinin, bu cür iddiaları gələcəkdə də irəli sürməyəcəklər, üçüncü tərəflərin bir-birinə qarşı başlatdığı bu tip hüquqi prosedurlara cəlb olunmayacaqlar, həmçinin, diplomatik və informasiya müstəvisində bir-birinə qarşı düşmən addımlar atmayacaqlar, bu cür fəaliyyətləri həvəsləndirməyəcək və qarşılıqlı məsləhətləşmələr yolu ilə sabitliyin təmin olunmasına çalışacaqlar. Azərbaycan və Ermənistan onilliklər ərzində müxtəlif beynəlxalq platformalar və məhkəmələrdə bir-birinə qarşı iddialar qaldırıblar. Ermənistan Azərbaycanı erməni əhaliyə qarşı "etnik təmizləmə" siyasəti yürütməkdə ittiham edib, ermənilərin Qarabağda "öz müqəddəratını təyinetmə hüququnun" boğulduğunu iddia edib, Azərbaycanın guya hərbi əməliyyatlar zamanı mülki əhaliyə ziyan vurması ilə bağlı AİHM və digər beynəlxalq instansiyalarda şikayətlər qaldırıb. Rəsmi Bakı isə İrəvanı ərazilərinin işğalı, etnik təmizləmə və müharibə cinayətləri törətməkdə ittiham edib, minalanmış ərazilər, mülki infrastruktura və tarixi abidələrə vurulmuş zərərlə bağlı beynəlxalq məhkəmələrdə işlər açıb, Ermənistanın ətraf mühitə vurduğu zərər və qızıl, mis yataqlarının qanunsuz istismarı ilə bağlı beynəlxalq iddialar qaldırıb. Bu iddiaların bir çoxu AİHM (Avropa İnsan Haqları Məhkəməsi) və BMT-nin müxtəlif qurumlarında, həmçinin Beynəlxalq Ədalət Məhkəməsində araşdırma mərhələsindədir. Avqustun 9-da əldə olunan razılaşma ilə tərəflər hüquqi sahədə "təmiz səhifə" açmaq qərarına gəldilər. Bunun nəticəsində davam edən hüquqi çəkişmələrə vaxt və resurs sərf olunmayacaq, beynəlxalq məhkəmə instansiyalarında hüquqi mübarizənin siyasi ritorikaya çevrilməsi prosesi dayanacaq, diplomatik danışıqlar hüquqi gərginlikdən azad olacaq. Ümumiyyətlə, diplomatik təcrübədə hüquqi iddialardan geri çəkilmək ciddi və düşünülmüş qərardır. Bu baxımdan, Azərbaycan və Ermənistanın hüquqi iraddan imtina etməsi dərin strateji siyasi iradənin göstəricisidir.







Azərbaycan və Ermənistan arasında paraflanmış sülh sazişinin ən vacib və strateji müddəalarından biri də iki dövlətin qarşılıqlı sərhədlərində üçüncü ölkələrin hərbi və ya digər silahlı qüvvələrinin yerləşdirilməsini istisna edən bənddir. Bu qərar regionda sabitliyin və suverenliyin təmin olunması, eyni zamanda xarici müdaxilələrin qarşısının alınması baxımından mühüm əhəmiyyət daşıyır. Həmin müddəa gələcəkdə potensial risklərin qarşısının alınması üçün nəzərdə tutulmuş preventiv və strateji çərçivədir. Paraflanmış sənədin mətnində açıq şəkildə bildirilir ki, Azərbaycan və Ermənistan bir-birinin sərhəd bölgələrində üçüncü tərəf silahlı qüvvələrinin və ya hərbi kontingentlərinin yerləşdirilməsinə icazə verməyəcək. Bunun əvəzinə, sərhədin delimitasiya və demarkasiya prosesi başa çatana qədər qarşılıqlı razılaşdırılmış etimad quruculuğu və təhlükəsizlik tədbirləri həyata keçirəcəklər. Bu, o deməkdir ki, sərhədin təhlükəsizliyi yalnız Azərbaycan və Ermənistan arasında ikitərəfli razılaşmalarla təmin olunacaq. Həmçinin bölgədə xarici hərbi iştirak və ya vasitəçilik modelindən imtina ediləcək, tərəflər bir-birinin təhlükəsizlik suverenliyinə hörmət göstərməyi öhdəlik kimi qəbul edəcəklər. Bu müddəanın əhəmiyyəti regional güclərin sərhədə müdaxilə imkanının məhdudlaşdırılması kontekstində ortaya çıxır. Cənubi Qafqazda uzun illərdir ki, Rusiya, İran, Türkiyə və Qərb dövlətləri müxtəlif formalarda vasitəçilik və hərbi-siyasi təsir vasitələri ilə iştirak ediblər. Ermənistanın Rusiya ilə KTMT çərçivəsində hərbi müttəfiqliyi və Azərbaycana yaxın coğrafiyada Rusiya sərhədçilərinin fəaliyyəti buna misaldır. Bu bənd həmin qüvvələrin birbaşa sərhəd bölgəsinə yerləşdirilməsinin qarşısını alır və iki ölkənin öz təhlükəsizlik arxitekturasını müstəqil şəkildə qurmasını təmin edir. Tərəflər arasında 2020-ci il və ondan sonra baş vermiş qarşıdurmalarda sərhəd bölgələrində bir çox təhlükəli insidentlər yaşanıb. Bu bənd həmin insidentlərin təkrarlanmaması üçün hüquqi baza yaradır. Bu saziş tərəflərin yalnız bir-biri ilə qarşılıqlı razılaşmalar çərçivəsində təhlükəsizlik tədbirləri həyata keçirməsini nəzərdə tutur. Bu isə hər iki tərəfin beynəlxalq münasibətlərdə tərəfkeşlikdən uzaq, neytral balanslı diplomatiya yürütməsinə imkan verir. Məsələn, Ermənistanın Rusiya ilə müttəfiqliyi fonunda Azərbaycan sərhədində rus hərbi mövcudluğu Azərbaycanın təhlükəsizliyinə təhdid kimi qəbul edilə bilərdi. İndi isə bu risk aradan qaldırılır. Paraflanmış saziş göstərir ki, sərhədlərin delimitasiyası (xəritə üzərində sərhədin dəqiq müəyyənləşdirilməsi) və demarkasiyası (sahədə real sərhəd nişanlarının qurulması) başa çatana qədər tərəflər sərhəddə qarşılıqlı razılaşdırılmış təhlükəsizlik tədbirləri həyata keçirəcəklər. Bu tədbirlərə ortaq sərhəd patrullarının təşkili, təhlükəsizlik zonalarının yaradılması, birgə monitorinq mexanizmlərinin tətbiqi daxil ola bilər. Əgər bu öhdəliklər real həyat və siyasət səhnəsində də tətbiq olunarsa, bu, Cənubi Qafqazın onilliklərdən sonra ilk dəfə tam suveren və sabit təhlükəsizlik sisteminə keçidinin başlanğıcı ola bilər.

Azərbaycan və Ermənistan arasında paraflanmış sülh sazişinin mühüm maddələrindən biri də tərəflərin qarşılıqlı razılaşdıqları məsələlərin icrasını təmin etmək məqsədilə ikitərəfli komissiyaların yaradılmasıdır. Bu mexanizm həm sülh prosesinin davamlılığını təmin edir, həm də münaqişənin həllindən sonra əlaqələrin normallaşmasına praktiki zəmin yaradır. Sazişin mətnində vurğulanır ki, ikitərəfli komissiyalar sülh sazişinin bütün müddəalarının tətbiqinə nəzarət edəcək, yaranan məsələləri həll edəcək, tərəflər arasında əməkdaşlığı gücləndirəcək. Belə komissiyalar həm siyasi, həm hüquqi, həm də texniki məsələlər üzrə fəaliyyət göstərəcək. Dünya təcrübəsində münaqişə sonrası sülh sazişlərinin icrası üçün komissiyaların yaradılması geniş istifadə olunur. Məsələn, Kosovo, Kolumbiya kimi münaqişə zonalarında xüsusi komissiyalar sülhün təmin olunması və uzunmüddətli dialoqun davam etdirilməsi üçün əsas vasitədir. Azərbaycan və Ermənistan arasındakı ikitərəfli komissiyalar da buna oxşar rol oynayacaq.

Azərbaycan və Ermənistan arasında uzun illər davam edən gərginlik və münaqişədən sonra paraflanmış sülh sazişin mühüm bəndlərindən biri də iki ölkə arasında diplomatik münasibətlərin qurulmasıdır. Bu addım münasibətlərin normallaşdırılması və gələcəkdə qarşılıqlı anlaşma və əməkdaşlığın inkişafı üçün əsas platformanı təmin edir. Sazişin mətni göstərir ki, tərəflər sülh sazişinin ratifikasiya sənədlərinin mübadiləsindən sonra ən qısa müddətdə öz aralarında 1961 və 1963-cü illərin müvafiq konvensiyalarına uyğun olaraq diplomatik və konsulluq münasibətlərini quracaqlar. Bu beynəlxalq hüquq sənədləri diplomatik əlaqələrin standartlarını və konsulluq fəaliyyətinin qaydalarını müəyyən edir. Beləliklə, Azərbaycan və Ermənistan arasında rəsmi diplomatik kanalların açılması tərəflər arasında əlaqələrin normallaşmasının beynəlxalq hüquqi mexanizmlər çərçivəsində baş tutacağını təmin edir. Diplomatik münasibətlərin qurulması ilə tərəflər arasında birbaşa və səmərəli əlaqə yaradılacaq. Bu, qarşılıqlı anlaşmazlıqların azaldılmasına, yaranan problemlərin vaxtında həllinə imkan verir və münaqişənin yenidən alovlanmasının qarşısını alacaq. Diplomatik əlaqələrin mövcudluğu ticarət, investisiya, turizm və mədəni mübadilə kimi sahələrdə əməkdaşlığın bərpası üçün əsasdır. İki ölkə arasında sərhədin açılması, nəqliyyat və enerji layihələrinin həyata keçirilməsi, eləcə də birgə humanitar təşəbbüslər diplomatik münasibətlərin qurulması ilə sürətlənəcək. Diplomatik münasibətlərin qurulması Azərbaycanın və Ermənistanın beynəlxalq ictimaiyyət qarşısında sülh tərəfdarı kimi mövqeyini gücləndirəcək. Bu, hər iki ölkənin regional və qlobal iqtisadi-siyasi layihələrdə daha fəal iştirakına, beynəlxalq təşkilatlarla əməkdaşlığın dərinləşməsinə şərait yaradacaq. Prosesin başlıca mərhələləri ratifikasiya sənədlərinin mübadiləsidir. Azərbaycan və Ermənistan arasında diplomatik münasibətlərin qurulması Cənubi Qafqazda daha geniş regional inteqrasiyanın başlanğıcı ola bilər. Bu, iqtisadiyyatın inkişafı, nəqliyyat və enerji infrastrukturunun yenidən bərpası və regional təhlükəsizliyin təminatı üçün zəmin yaradacaq. Eyni zamanda, bu proses digər qonşu dövlətlərin də sülhə töhfə verməsinə şərait yaradacaq, onların da regional layihələrdə iştirakına qapı açacaq.

Bunların fonunda əminliklə demək olar ki, Azərbaycan və Ermənistan arasında paraflanmış sülh sazişi yalnız keçmişin yaralarını sağaltmaq üçün deyil, həm də regionun gələcəyini qurmaq üçün böyük fürsətdir. Bu sülh müqaviləsinin uğurlu tətbiqi və inkişafı üçün hər iki tərəfin, regionun və beynəlxalq ictimaiyyətin üzərinə böyük məsuliyyət düşür. Əgər bu əməkdaşlıq müvəffəqiyyətlə həyata keçirilərsə, Cənubi Qafqaz uzun illərdən sonra sülh, stabillik və rifah bölgəsinə çevriləcək.

**Jalə QASIMZADƏ,**
**"Respublika".**

Respublika .- 2025.- 13 avqust (№168).- S.1;6.